# YADDAŞIMIN KƏNDİNİ YAZDIM

***Biz "Böyük Qayıdış" Proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Redaktor və ön sözün müəllifi:**
***Əli Rza Xələfli, şair-publisist***

**Rəyçi və son sözün müəllifi:**
***Şəddat CƏFƏROV,*** *fəlsəfə doktoru, yazıçı-publisist*

Səxavət İldırım oğlu (*Məhərrəmov Səxavət İldırım oğlu*). **Yaddaşımın kəndi** (***tarixi-publisistik qeydlər***). Bakı-2026, "Gənclik" nəşriyyatı, 160 səhifə.

*Səxavət Məhərrəmovun "Yaddaşımın kəndi" kitabında Cəbrayıl rayonunun Doşulu kəndinin tarixi ilə bağlı publisistik qeydlərdə 30 illik işğalın tarixi faktlar və şahid ifadələri əsasında müxtəsər şərh olunub. Zənnimizcə, gələcəkdə işğal tarixinin öyrənilməsi üçün bu tipli mənbələrin əhəmiyyəti çox böyük olacaq. Müəllif yaddaşında olan hadisə və əhvalatları da canlı bir dillə yazıya alıb.*

*Kitabın maraqla qarşılanacağına inanırıq.*



Mən özümü bəxtli adam hesab edirəm. Çünki Uca Tanrı mənə torpaqlarımızın işğaldan azad olunduğu günü görməyi qismət elədi. Dağların ətəyindəki dağ gözəlinə bənzər kəndimiz yoxdur, əvəzində xarabalıqları var. Kimsəyə asan gəlməsin, doğulub-böyüdüyün kəndə, doğma evinə, həyətinə, öz əlinlə əkdiyin ağaclara baxmaq istəyəsən və bunları görməyəsən. Bax, buna deyirlər sinəsi dağlanmaq.

Əlbəttə, nə qədər yanıb-yaxılsam da, Qarabağın işğaldan azad olunması mənim üçün böyük təskinlikdir. Doğrudur, tələsirik, abad kəndi təzədən görək, dövlətimizin bütün gücü ona sərf olunur ki, insanları mümkün qədər öz yerinə, yurduna qaytarmaq mümkün olsun. Amma nə etmək olar, bu tezlikdə hər şeyi öz arzularımıza uyğun görə bilmərik axı...

Amma ümidlər, inamlar çox sürətlə bərpa olunur. Çünki yağı düşmən torpağı daşıyıb apara bilməyib, bəlkə, gücləri çatsaydı, bunu da edərdilər.

Dağlarımız yerindədi. Mən inanıram ki, o dağların döşündəki bulaqlar, süzülüb gələn kəhrizlər də nə qədər ağlamaqdan gözləri qurusa belə, yenə öz axarına qayıdacaq. Necə ki, ata-babalarımız deyərdilər: Su axan arxa bir də gələr.

Məndən kimsə soruşsa ki, bu qeydləri nə üçün yazmışam; onda dəqiq və aydın cavab verərəm. Ona görə yazmışam ki, insanlar öz keçmişlərindən birdəfəlik ayrılmasınlar, yaxşı ənənələri unutmasınlar. Mənim yazdıqlarım nisbətən yaşlı nəsil üçün ipucudur. Hər kəs özünə tanış olan bir ada güvənib xatirələrini övladlarına danışa bilər.

Yaxşı bilirik, Azərbaycanın tarixi faciələri yaddaşdan ayrılma ilə bağlıdır. Düşünürəm ki, "Yaddaşımın kəndi"ni yazmaqla öz missiyamı qismən də olsa, yaşımın indiki ahıl çağında erinə yetirmişəm.

İnanıram, güney camaatı tarixi yerlərinə qayıdacaq və demək, bizim Doşulu kəndi də bərpa olunacaq. O zaman kimsə "Yddaşımın kəndi"ni yazmış müəllifi də xatırlayacaq. Bu, mənim inamımdır.

Həyat isə davam edir.

***Səxavət MƏHƏRRƏMOV***
***19.01.2026***

Kredo .- 2026.- 11 fevral (№06).- S.7.